# Heydər Əliyev dühasının təntənəsi

Azərbaycanda neft strategiyasının uğuru ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. O, çox gözəl bilirdi ki, Azərbaycanın inkişafı ilk növbədə onun iqtisadi qüdrətini artıran enerji təminatının yaxşılaşdırılmasından keçir.

Bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınmış bu sazişin imzalanması və reallaşması dahi siyasətçi Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olmuşdur. Bu tarixi addımla müstəqilliyini və inkişaf edən iqtisadiyyatının dayanıqlığını sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib. Milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə olunması üçün 90-cı illərin əvvəllərində ulu öndər böyük zəhmət sərf etmiş, müstəqil siyasi addımlar atmışdır. "Əsrin müqaviləsi" ilə bağlı 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustonda keçən danışıqların son mərhələləri xüsusilə mübahisəli olmuşdur.

"Əsrin müqaviləsi" müstəqil dövlət kimi Azərbaycanın öz milli sərvətlərinin əsl sahibi olmasının rəmzidir, iqtisadiyyatının dünya iqtisadiyyatına qovuşmasının, ölkənin 90-cı illərin əvvəllərindən başlanmış siyasi, iqtisadi və sosial böhranlardan çıxıb dirçəlməsinin rəmzidir. XXI əsrin astanasında yüksək inkişaf etmiş, möhkəm, demokratik Azərbaycan dövlətinin yaranmasının etibarlı əsasıdır.

Ümummilli liderimiz Heydər Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir".**

"Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin Milli Neft Strategiyasının həyata keçirilməsinə başlandı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycana olan marağının artması müşahidə olundu. Ölkəmizin dünya ölkələri ilə beynəlxalq əlaqələrinin genişlənməsi üçün güclü vasitə oldu. "Əsrin müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə şərait yaratdı. Bu beynəlxalq neft sazişinin imzalanması dünya dövlətləri ilə Azərbaycan arasında qarşılıqlı inam və etibarın artmasına və dövlət geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə zəmin yaratdı.

"Əsrin müqaviləsi"ndə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi barədə müqavilədə Azərbaycan Dövlət Neft Şirkətinin on bir xarici ölkə neft şirkəti ilə birgə əməkdaşlıq etməsi nəzərdə tutulurdu. Bu əməkdaşlıq uğurla həyata keçirildi. "Çıraq" yatağında 1997-ci ildən neft hasil olunur. Həmin yataqdan alınan neft dünya bazarına ixrac edilir.

Heydər Əliyevin əsas neft strategiyasında Azərbaycanın milli mənafelərinin qorunması, genişsahəli beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, neftin dünya bazarına çıxarılmasının təmin edilməsi məqsədilə strateji əhəmiyyəti olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşması üçün gərgin günlər yaşanmış, aparılan danışıqlar uğurlu nəticə ilə yekunlaşmışdır. BTC layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək üçün ABŞ-ın iştirakı ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistan arasında İstanbul bəyannaməsi imzalanıb. Bununla da Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan reallığa çevrilmiş oldu.

Vurğulamaq lazımdır ki, 1999-cu il aprelin 17-də müstəqil Azərbaycanın tarixində digər böyük əhəmiyyət kəsb edən daha bir hadisə yaşandı.

Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstan prezidenti Eduard Şevardnadze və Ukrayna prezidenti Leonid Kuçmanın iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstan Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Beləliklə, "Çıraq" yatağından çıxarılan neftin Supsa limanından dünya bazarına ixracına başlanmış və ilk dəfə olaraq Azərbaycan nefti Şimala yox, tam əksinə, Qərbə istiqamət götürüb. Bu hadisə ilə Azərbaycan ikinci dəfə dünya bazarına açıq olduğunu öz əməlləri ilə göstərmişdir.

Neft Strategiyasının uğurla reallaşması şəraitində milli resursların xarici şirkətlərlə birgə istehsalı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları artmaqdadır. Davos İqtisadi Forumuna əsasən, Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birinci sıradadır, dünya iqtisadiyyatının inkişafı üçün vacib olan regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Heydər Əliyevin banisi olduğu "Milli Neft Strategiyası"nı layiqli şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin TANAP layihəsinin təməlqoyma mərasimində ifadə etdiyi sözlər, Azərbaycanın yeni enerji strategiyası və həyata keçirilən layihələr bu sahə üzrə təcrübəli dövlət olduğunu göstərmişdir.

Neft Fondunun yaradılması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli şəkildə idarə edilməsi və istifadəsi üçün əsaslı təminat yaradıldı. Neft sənayesinin inkişafı, möhtərəm Prezidentimiz İlham Əliyevin söylədiyi kimi, iqtisadi resurslar "məqsəd yox, vasitədir". Olduqca əhəmiyyətli gücə malik həmin vasitə Azərbaycan xalqının maddi rifah səviyyəsinin sürətlə yüksəlməsinə xidmət edir. Neft kapitalının insan kapitalına çevrilməsində, səmərəli ictimai sərmayə mənbəyinə çevrilməsi həm Neft Fondunu önəmli quruma çevirmişdir.



2019-cu il mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq Xəzər Neft və Qaz -2019" sərgi və konfransı, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi keçirilmişdir. Sərgidə Prezident nitq söyləmiş və demişdir: **"Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərmişdir.**

**1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" neft yataqları üzrə imzalanmış kontrakt, demək olar ki, bizim inkişafımıza böyük təkan verdi. Təsadüfi deyildir ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona "Əsrin kontraktı" adı verilmişdir".**

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlanmışdır və eyni zamanda, ondan sonra digər kontraktlar da imzalandı. Bu gün də onun əhəmiyyəti kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı. 2050-ci ilədək bu kontrakt qüvvədə olacaq. Bu o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət edəcəkdir.

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**

Respublika.- 2019.- 20 sentyabr.- S.7